*Rusiyadakı soydaşlarımız*

# Vətən oğlunun böyük uğuru



...1977-ci ilin iyun ayı idi. Vedinin hansı səmtinə, hansı guşəsinə baxırdınsa böyük təntənə duyulur, tar, kaman səsi eşidilir, insanlar halal zəhmətləri ilə xarüqələr yaradır, onların heç ağlına da gəlmirdi ki, on ildən sonra xoş növrağaları pozulacaq, erməni xəyanəti nəticəsində qədim Oğuz ellərini tərk edəcəklər.

Kiçik Vedi kəndindəki orta məktəbin onuncu sinif şagirdləri sonuncu imtahanı verir, onların keçirdikləri həyəcan aydınca hiss olunurdu. Əlbəttə, hamı çalışırdı ki, onların imtahan cavabları müəllimləri razı salsın, bayırda əllərində gül-çiçək dəstələri tutmuş ata-analar, bacı-qardaşlar sevinsin.

Budur, imtahan otağını tərk edən məzunlar içərisində Kazım Ələkbərov da görünür. Onun baxışından, çöhrəsindən aydınca hiss olunurdu ki, sonuncu imtahandan da beş qiymət alıb, yuxusuz gecələr, səmərəli mütaliə öz bəhrəsini verib.

İmtahan başa çatdıqdan sonra məzunlarla yaddaqalan görüş keçirildi. Demək olar ki, əksər valideynlər bu tədbirdə iştirak edirdi. Məktəb direktorunun təkidi ilə məzunlar adından danışmaq üçün söz təhsil aldığı müddətdə həmişə öz çalışqanlığı, fitri istedadı ilə sayılıb-seçilən Kazım Ələkbərova verildi. O, yaman kövrəlmişdi. Kövrəlmişdi ona görə ki, qəlbləri bir döyünən sinif yoldaşlarından, gözlərinin nurunu, qəlblərinin hərarətini gənc nəslin təlim-tərbiyəsinə sərf edən sevimli müəllimlərindən ayrılacaqdır.

Bir an Kazımın gözləri məchul nöqtəyə tikildi. Sonra isə qəlbindən süzülüb gələn sözləri ifadə edərək dedi:

—Bildiyiniz kimi Vedibasar mahalı Qərbi Azərbaycanda sayılıb-seçilən bir bölgədir. Bu oba, bu el tarixən igidlər Vətəni olub, Abbasqulu Ağa Şadlinski kimi Koroğlu, Babək qeyrətli oğullar həmişə doğma elin təəssübünü çəkib, tarixən türk qanına susayan ermənilərin “dərsini” verib, çalışıblar ki, “Dənizdən-dənizə” “Böyük Ermənistan” xülyası ilə yaşayan daşnaklar öz çirkin əməllərini reallaşdıra bilməsinlər. Bu gün doğma məktəbə əlvida deyirik, illər keçsə də son zəng qəlbimizdə yaşayacaqdır. Arzular qanadında hərəmiz bir səmtə üz tutacağıq. Qəlbimin hökmü ilə mən də Moskva şəhərinə gedəcək, hüquq təhsili alacağam...

Doğrudan da Kazım Ələkbərovun qısa və məzmunlu çıxışı hamıda xoş ovqat yaratdı. Tədbir iştirakçıları gənc, mülayim baxışlı bu oğlana gələcəkdə fəal həyat mövqeyi tutmağı arzuladılar. Əminliklə bildirdilər ki, Kazım Vedibasar mahalının sayılıb-seçilən oğullarından birinə çevriləcəkdir.

Çox keçmədən Kazım Ələkbərov səfərə hazırlaşdı. Qıvraq, balaca çamadanı ilə Bakıya, oradan da qatarla Moskva şəhərinə yollandı.

Kazım tərəddüd etmədən ilk öncə sənədlərini sənəd məktəbinə verdi, tədricən şəhər mühitinə alışdı, üzləşdiyi çətinliklərə dözdü. Kiçik Vedi, hər qarışında ayaq izləri qalan doğma el-obası, romantik kənd həyatı yadına düşdükcə sifariş verib, telefonla ailə üzvləri ilə danışdı.

Bir müddətdən sonra Kazım Moskva Dövlət Universitetinin hazırlıq şöbəsinə daxil oldu, həmçinin “Elm” nəşriyyatında işə düzəldi.

Kazım qəlbinin hökmü ilə Bakı şəhərinə qayıtdı, ən sevimli yeri mavi Xəzərin nəğməli sahilləri oldu. O, 7 ay Bakı şəhərində XXII Qurultay adına Gəmiqayırma Zavodunda çilingər kimi əmək fəaliyyətini davam etdirdi. Heç vaxt kitab əlindən düşmədi, mütaliə etməyə üstünlük verdi.

Günlərin birində isə vedibasarlı, qəlbi yurd, Vətən eşqi ilə döyünən Kazım Ələkbərov ordu sıralarına yollandı. Əsgəri xidmətdə komandanlığın hörmət və nüfuzunu qazandı. Hərbi texnikanın sirlərini dərindən öyrəndi, nümunəvi qulluğunun müqabilində hərbi komandanlıq tərəfindən ailələrinə razılıq məktubu göndərildi, dəfələrlə diplom və təşəkkürnamələrə layiq görüldü.

Əsgəri xidmət müddəti başa çatdıqdan sonra Kazım Ələkbərov Moskva şəhərində Patris Lumumba adına Xalqlar Dostluğu Universitetinin tarix fakültəsinə daxil oldu. Ensiklopedik biliyə yiyələndi, tarix elmini mükəmməl öyrəndi, demək olar ki, hər gün müxtəlif kitabxanalarda oldu, elmi ədəbiyyatları həvəslə mütaliə etdi. Həmişə semestr imtahanlarını müvəffəq qiymətlərlə başa vurdu. Universitetin ictimai işlərində fərqləndi.

Ali təhsil aldıqdan sonra həmyerlimiz Kazım Ələkbərov 1987-94-cü illərdə Moskvanın Lenin (indiki Xamovniki) rayonunda məhkəmə orqanında icraçı kimi çalışıb. Bu dövrdə xalq icraçısı işləyib.

Həmyerlimiz, Qərbi Azərbaycanın Vedibasar mahalında doğulub, boya-başa çatan Kazım Ələkbərov çox keçmədən Moskva şəhərində öz bacarığı, peşəsinə qəlbən bağlılığı ilə geniş nüfuz qazanmış, hər bir sahədə xalqımızı bacarıqla təmsil etmişdir. Haqqında söhbət açdığımız soydaşımız fəxr edir ki, qanun keşiyində durur, insanların hüquqlarının qorunub saxlanılması kimi xeyirxah bir missiyanı ləyaqətlə yerinə yetirir.

Elmə, təhsilə tükənməz enerji ilə bağlanan eloğlumuz Kazım Ələkbərov 1989-1995-ci illərdə Moskva Dövlət Hüquq Akademiyasının hüquq fakültəsində işləyə-işləyə qiyabi yolla təhsilini davam etdirmiş, 1994-98-ci illərdə Moskva Baş Ədliyyə İdarəsində aparıcı mütəxəssis vəzifəsində çalışmışdır.

Moskvada yaşadığı illərdə Kazım Ələkbərovu həmişə Azərbaycan ərazilərinin 20 faizini nankor ermənilər tərəfindən işğal olunması düşündürmüş, qaçqın və məcburi köçkünlərin taleyi ona rahatlıq verməmiş, Azərbaycan həqiqətlərinin dünya xalqlarına çatdırılmasında var qüvvəsini əsirgəməmişdir.

Dərin, zəngin biliyə malik olan həmyerlimiz Kazım Ələkbərov 1998-2007-ci illərdə Moskva şəhərində Məhkəmə icraçıları Federal Xidmətinin rəis müavini vəzifəsində çalışmış, 2007-2011-ci illərdə Məhkəmə icraçıları Federal Xidmətində ərizə, şikayətlər şöbəsinin rəisi vəzifəsinə yüksəlmişdir.

Fəxrlə qeyd etmək olar ki, general-polkovnik Kazım Ələkbərov Moskva şəhərində təhsil alan azərbaycanlı gənclərlə sıx əlaqə saxlayır, onların üzləşdikləri problemlərin aradan qaldırılması ilə maraqlanır və onlara tövsiyə edir ki, elm, təhsil yolunda şam kimi ərisinlər, yüksək biliyə malik olsunlar, Vətənə, el-obaya layiq oğul olsunlar.

Vurğulamaq lazımdır ki, haqqında söhbət açdığımız eloğlumuz 2011-ci ildən 2012-ci ilədək Moskvanın Şimal-Qərb vilayətinin Şukinski rayonunda Məhkəmə Qərarlarının İcra Şöbəsinin rəisi vəzifəsində çalışmış, 2013-cü ildən 2014-cü ilədək Moskva vilayətinin Lobnuya şəhər Məhkəmə İcra Şöbəsinin rəisi vəzifəsində işini uğurla davam etdirmişdir.

General-polkovnik Kazım Ələkbərov 2014-cü ildən indiyədək Moskva vilayətinin Krasnoqorski şəhərində rəis vəzifəsində çalışır. O, Rusiya Federasiyasının ikinci dərəcəli Dövlət Ədliyyə müşaviridir.

Həmyerlimiz hüquq elmləri namizədidir. Bir alim kimi Rusiya Federasiyasında nüfuz qazanmış, elm sahəsində parlaq uğurlara imza atmışdır.

Qeyd etmək lazımdır ki, Kazım Ələkbərov Rusiya Məhkəmə Qərarları Federal Xidmətinin fəxri işçisidir.

General-polkovnik Kazım Ələkbərov ayrı-ayrı illərdə nümunəvi fəaliyyətinə görə 8 medala, diplomlara layiq görülmüşdür.

Biz Kazım müəllimi yaxından tanıyan müəyyən insanlarla görüşüb söhbət etdik, onların ürək sözlərini olduğu kimi qələmə aldıq.

**İlqar Hacıyev (Moskva şəhəri, Ümumrusiya Azərbaycanlıları Konqresinin icraçı direktoru):**

—Görkəmli ədib Məmməd Səid Ordubadi yazırdı: *“Bir xalqın böyüklüyü onun sayca çoxluğunda deyil, əsrlərdən bəri bəşəriyyət tarixində yetirmiş olduğu böyük şəxsiyyətləri, qüdrətli övladları ilə ölçülür”.*

Xalqımızın yetişdirdiyi belə şəxsiyyətlərin timsalında 30 ildən çox Moskva şəhərində yaşayan, hüquqşünas alim, ikinci dərəcəli Dövlət Ədliyyə müşaviri, qəlbi Vətən, Azərbaycan eşqi ilə döyünən, Moskvadakı tələbə gənclərin ümid çırağına çevrilən Kazım Ələkbərovun adını şərəflə çəkmək olar. Biz həmyerlimizlə fəxr edirik, onun ömür yolu başqalarına örnəkdir. Fəxrlə qeyd etmək olar ki, Azərbaycan-Rusiya dostluq əlaqələrinin möhkəmlənməsində hüquq elmləri namizədi Kazım qardaşımızın xidmətləri çox-çoxdur.

**Etibar Abdullayev (Bakının Nərimanov rayonundakı 19 saylı birinci Dairə Seçki Komissiyasının sədri):**

—Moskva şəhərində yaşayan, həmyerlimiz Kazım Ələkbərovla sıx dostluq əlaqələrim var. O, yaşadığı ölkədə sayıb-seçilən oğullardandır. Tarixə nəzər salsaq görərik ki, Vedi mahalı Kazım kimi çox oğullar yetişdirib. Söhbət əsnasında o, qürurla bildirir ki, Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirir. Azərbaycan Cənubi Qafqazda öz liderliyini şərəflə qoruyub saxlayır. Azərbaycan dünyanın idman ölkəsinə çevrilmişdir. Bakı isə Avropanın ən gözəl, füsunkar guşələrindən biridir.

Moskvadakı eloğlumuzla, general-polkovnik Kazım Ələkbərovla fəxr edirik!

**İbrahim Əliyev (Dövlət Avtomobil Nəqliyyatı Xidməti rəisinin müavini):**

—İşimlə bağlı ayrı-ayrı illərdə Moskvaya səfərlərim olub. Rusiya Federasiyasının paytaxtında müxtəlif peşə sahibləri ilə tanışlığım var. Mən cəsarətlə deyə bilərəm ki, həmyerlimiz general-polkovnik Kazım Ələkbərov dostlarımın arasında sayılıb-seçilənlərindəndir. İnsan Vətənə, el-obaya nə qədər bağlı olarmış. O, Rusiya Məhkəmə Qərarları Federal Xidmətinin fəxri işçisidir, hüquq elmləri namizədidir. Hazırda Moskva Vilayəti Krasnoqorski şəhərinin rəisidir. Kazım Ələkbərov öz əməlləri, işi ilə doğma Azərbaycanımıza şərəf, başucalığı gətirir. O, yaşadığı ölkədə Azərbaycanın yüksəlişinə, tərəqqisinə, elminə, mədəniyyətinə can yandırır, bunu özünə borc bilir. Öz əməlləri, tövsiyə və göstərişləri ilə Moskvada təhsil alan gənclərin yoluna işıq saçıb, həmişə onlara arxa, dayaq olub.

Kazım Novruzov 4 övlad atasıdır. Hər birinin qəlbində Vətənə, Vedi mahalına sonsuz sevgi var. Ataları boş vaxtlarında övladlarına qədim Oğuz yurdu olan Vedibasardan, onun tarixindən coğrafiyasından danışır. Onları əmin edir ki, qədim torpaqlar işğaldan azad olunacaq, vedililər yurd yerlərinə dönəcəklər.

**Qədir ASLAN,**
**“Respublika”.**